# Bakı Təşəbbüs Qrupu ilə Qvadelupanın Azadlığı Naminə Xalq Birliyi arasında strateji əməkdaşlığa dair memorandum imzalanıb

Martın 29-da Bakıda keçirilən "Kolonializm: dini-milli kimliyin silinməsi" mövzusunda beynəlxalq konfrans çərçivəsində Bakı Təşəbbüs Qrupu (BTQ) ilə Qvadelupanın Azadlığı Naminə Xalq Birliyi arasında strateji əməkdaşlığa dair memorandum imzalanıb.

AZƏRTAC xəbər verir ki, memorandumu Qvadelupanın Azadlığı Naminə Xalq Birliyinin baş katibi Jan-Jakob Bisep ilə BTQ-nin icraçı direktoru Abbas Abbasov imzalayıblar.

Azərbaycan. - 2025.- 2 aprel (№ 62).- S.14.